

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 12-13
(7061-7062) ☼ Cümə axşamı, 21 fevral 2013-cü il ☼ Qəzet ayda 4 dəfə çıxır ☼ Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Prezident İlham Əliyev Azərbaycan Respublikası Gömrük Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalamışdır.

☼ ☼ ☼

Dövlətimizin başçısı İlham Əliyev Tacikistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zohir Saidovun etimadnaməsini qəbul etmişdir.

☼ ☼ ☼

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında sərəncam imzalamışdır.

☼ ☼ ☼

Dövlət başçısı İlham Əliyev Beynəlxalq Atıcılıq Federasiyasının baş katibi Frants Şrayberi qəbul etmişdir. Ölkəmizlə yaxından tanış olan qonaq Qəbələdəki idman kompleksinə getdiklərini, Bakıda bir sıra idman obyektlərinə baş çəkdiklərini vurğulayaraq ölkədə bu sahəyə dövlət səviyyəsində göstərilən diqqətin önəmini qeyd etmişdir.

☼ ☼ ☼

Prezident İlham Əliyev Azərbaycan Həmkarlar İttifaqları konfederasiyası əməkdaşlarının bir qrupuna «Əməkdar mədəniyyət işçisi» fəxri adının verilməsi və «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında sərəncam imzalamışdır.

☼ ☼ ☼

Serbiya Prezidenti Tomislav Nikoliç Azərbaycanda işgüzar səfərdə olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevlə Serbiya Prezidenti arasında əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüşlər olmuş, mətbuat konfransı keçirilmiş, dövlətlərarası sənədlər imzalanmışdır.

☼ ☼ ☼

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya xarici işlər nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

☼ ☼ ☼

Dövlətimizin başçısı İlham Əliyev Qazaxıstanın Azərbaycandakı səfiri Serik Primbetovu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

**M. RƏHİMOV.**

## Akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2013-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olur.

Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında əvəzsiz xidmətləri olan akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 7 fevral 2013-cü il.*

## Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin

# MÜRACİƏTİ

***Möhtərəm cənab Prezident!***

***Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı dərin məzmunlu nitqinizdə ötən ildə əldə edilən uğurlar hərtərəfli təhlil edilmiş, 2013-cü ildə qarşıda duran vəzifələr geniş şərh olunmuşdur.***

***Azərbaycanın sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf xəttinin Sizin tərəfinizdən böyük məharətlə davam etdirilməsinin parlaq nəticəsidir. Sizin qeyd etdiyiniz kimi, ötən il ölkə iqtisadiyyatı üçün uğurlu il olmuşdur. Azərbaycan iqtisadiyyatı keçən il öz dinamik inkişafını qoruya bilmiş, bu il ölkəmizdə görüləcək işlər isə daha böyük nailiyyətlərin qazanılmasını təmin edəcəkdir. Əlbəttə, bu nailiyyətlərin təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət və iqtisadi islahatlar dayanır. İqtisadiyyatımızın yüksəlişi, əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təşkili, regional inkişaf proqramının davamlı icrası hər birimizdə böyük iftixar hissi doğurur.***

***2012-ci ilin yekunlarına görə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır.***

***Möhtərəm cənab Prezident!***

***Uğurla həyata keçirilən sosial-iqtisadi proqramlar ölkəmizin müstəqil siyasətinin davamlı inkişafına, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə yönəlmişdir. İqtisadiyyatımız mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir.***

***Əminik ki, Sizin gərgin əməyiniz nəticəsində 2013-cü ildə də ölkəmiz daha sürətlə inkişaf edəcək, Azərbaycan iqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri sırasında olacaqdır.***

***2012-ci ilin yekunları bir daha göstərir ki, ölkəmizin gələcəyinə hesablanmış müdrik siyasətiniz Azərbaycan dövlətini, onun müstəqilliyini daha da möhkəmləndirir.***

***Sizin rəhbərliyinizlə həyata keçirilən hərtərəfli islahatların dinamik inkişafı, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin ildən-ilə yüksəldilməsi və Azərbaycanın dünya iqtisadi sistemində mühüm yer tutması Qəbələ rayon ictimaiyyəti tərəfindən də böyük razılıq hissi ilə qarşılanır. Əminik ki, 2013-cü ildə nailiyyətlərimiz daha da artacaq, ölkəmiz beynəlxalq müstəvidə öz mövqelərini daha da möhkəmləndirəcəkdir.***

***Möhtərəm cənab Prezident!***

***Sizin yekun nitqinizdə deyildiyi kimi, müstəqillik dövründə, biz elə böyük uğurlara imza atmışıq ki, hər bir Azərbaycan vətəndaşı bunlarla fəxr edə bilər.***

***Sizə müstəqil Azərbaycanımızın inkişafı və xalqımızın daha işıqlı gələcəyi naminə gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, möhkəm cansağlığı arzu edirik.***

***Tanrı Sizi qorusun.***

*Müraciət Qəbələ rayon ictimaiyyətinin nümayəndələri tərəfindən 18 fevral 2013-cü il tarixdə 2012-ci ilin yekunlarına həsr olunmuş iclasda qəbul edilmişdir.*